Qəbələdə keçirilən "Poeziya günü" şeirsevərləri bir araya gətirib

(Əvvəli birinci səhifədə).

Tədbirdə çıxış edən xalq şairi Nəriman Həsənzadə Azərbaycan ədəbiyyatında vətənpərvərlik mövzusunun bütün zamanlarda aktual olduğunu, müasir dövrümüzdə isə xüsusi önəm daşıdığını diqqətə çatdırıb.

Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü Ramiz Rövşən, gənc şairlər Fərid Hüseynov, Gülnar Qasımlı, Lamiyə İsayeva, Zəhra Bədəlbəyli, Alsu Carçılı, Aynur Nurlu, Heyran Hüseynova və Şahanə Müşfiq müharibə mövzusunda, həmçinin Azərbaycan və Bakı haqqında şeirlərini səsləndiriblər. Şairlərin çıxışları Azərbaycan bəstəkarlarının musiqilərinin sədaları və videogörüntülərlə müşayiət olunub.

Sonra Leyla xanım Əliyeva özünün "Zəhranın xatirəsinə" və "Bakı" adlı şeirlərini oxuyub.

Tədbirin aparıcısı, şairə Nigar Həsənzadənin rəhbərliyi ilə "Söz" ədəbi layihəsinin iştirakçıları - Əsgər Novruzov, Leyla Qurbanova, Səbinə Vəlibəyova, Zaur Rəxşan və Firdovsi Rəsul da öz şeirlərini səsləndiriblər.

Proqram çərçivəsində xalq artisti Zülfiyyə Xanbabayeva, Əməkdar artistlər Fərqanə Qasımova və Sevda Ələkbərzadə, Azərbaycan Milli Konservatoriyasının dosenti, pianoçu Naibə Şahməmmədova və Qəbələ İncəsənət Məktəbinin uşaq xoru zövq oxşayan mahnılar və musiqilər ifa edildi.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin dəstəyi ilə yenicə çapdan çıxmış "Gənc yazarların vətənpərvərlik mövzusunda şeirlər toplusu" təqdim olunub. Leyla xanım Əliyevanın, o cümlədən 47 gənc şairin, ümumilikdə, 61 şeirinin yer aldığı kitab iştirakçılara və qonaqlara paylanılıb.

Sonda Leyla xanım Əliyeva tədbir iştirakçıları ilə xatirə şəkilləri çəkdirib.

"Qəbələ"

"Vətənin müdafiəsinə hazıram!" mövzusunda tədbir keçirilib

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə Qəbələ Rayon İcra Hakimiyyəti "Vətənin müdafiəsinə hazıram!" mövzusunda birgə tədbir keçirib.

Tədbirdə icra hakimiyyətinin əməkdaşları, hüquq mühafizə orqanlarının rəhbərləri, SHXÇDX-nin rayon şöbəsinin şəxsi heyəti, idarə, müəssisə və təşkilatların təmsilçiləri, şəhid ailələri, müharibə veteranları və məktəblilər iştirak edib.

Qəbələ Mədəniyyət Mərkəzində keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının müqəddəs xatirəsi anılıb.

Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov respublika əhalisinin əksəriyyətini təşkil edən gənclərin üzərinə məsuliyyətli vəzifələrin düşdüyünü qeyd edərək, tarixin bütün mərhələlərində dövlətçiliyimizin mühafizəsi, torpaqlarımzın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün və müstəqilliyimizin qorunub-saxlanılması sahəsində onların əvəzsiz rolunun olduğunu bildirib.

RİH başçısının müavini Azərbaycan xalqının müharibə arzulamadığını, həmişə sülhün, əmin-amanlığın tərəfdarı olduğunu qeyd etməklə bərabər sülh istəyən xalqın həmişə hərbə də hazır olmasının vacibliyini diqqətə çatdırıb.

Abil Ağasəfov sülhsevər Azərbaycan xalqının həmişə öz tarixi torpaqlarının qorunması ilə əlaqədar müharibələrə cəlb edildiyini və bu mübarizələrdə qəhrəmanlıq nümunələri göstərdiyini, öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişdirdiyini vurğulayıb.

O, ötən ilin aprelində erməni qəsbkarlarının törətdiyi silahlı təxribatın qarşısı alınarkən, torpaqlarımızın işğaldan azad olunması istiqamətində gedən savaşlarda misilsiz igidlik göstərmiş cəsur oğullarımızın ibrətamiz şücaətini və qəhrəmanlığını buna əyani misal göstərib.

Natiq həmin döyüşlərdə igidliklə şəhid olan həmyerlimiz leytenant Sahil Şirinovun cəsurluğundan danışaraq, onun göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edildiyini deyib.

(Ardı 3-cü səhifədə).